# Diqqət mərkəzində

Qadınlara qayğı, nəvaziş təkcə bayram və seçilmiş günlərlə deyil, daimi olmalıdır. Onları sevindirmək, numuzun bir qrup qadınları DİXİHİ Qəbələ Rayon Komitəsi tərəfindən ziyarət olunmuş, yada salınmış və hə-



yada salmaq hər gün üçün xarakterik olmalı. Xüsusilə yaşlı, tənha yaşayan, həyatın onlara bəxş etdiyi üzüntüləri yaşayan, iş qabiliyytini itirən qadınlara həmişə qayğı ilə yanaşılmalıdır. Qadın azadlığının bərqərar olunduğu gün kimi tanıdığımız 8 Mart ərəfəsində rayo- diyyələr təqdim edilmişdir. Əlbəttə, bu onların sevinc hissi yaşamasına, xatırlandıqları üçün, onlara qayğı hissinin olduğu üçün xoş qarşılanmışdır.

Qadınlar həmişə diqqət mərkəzində olmalı, xeyirxahlıq hissləri onlara daimi hiss etdirilməlidir.

# Beynəlxalq Qadınlar Günü

Hər il 8 mart tarixində qeyd olunan Beynəlxalq Qadınlar Günü qadınların iqtisadi, ictimai və siyasi mübarizəsini, habelə ümumi olaraq qadınlara qarşı nəzakət, sevgi və məhəbbətini, tərənnümünü ənənəvi hala gətirmiş bir bayramdır.

Qadınların bərabər hüquqlu olmaq uğrunda apardığı mübarizənin təmsili, başlanğıcı olaraq, 8 mart 1857-ci ildə ABŞ-ın Nyu-York şəhərində geyim sektorunda çalışan yüzlərlə qadının aşağı maaşa, uzun çalışma saatlarına, eyni zamanda ağır iş şəraitinə etiraz olaraq tətil etməsi qəbul edilir. Lakin polis aksiyanın uzun sürməsinə izin verməyərək nümayişi dağıtdı.

İlk Qadınlar Günü mərasimi 1909-cu ilin 28 fevralında Nyu Yorkda baş tutmuşdur; bu Amerika Sosialist partiyası tərəfindən Beynəlxalq Qadın Tikiş İşçiləri Birliyinin 1908-ci ilki tətilinin yada salınması münasibətilə təşkil olunmuşdu.

1910-cu ildə 1857-ci il hadisələrindən 52 il sonra Danimarkanın Kopenhagen şəhərində keçirilən Qadın Sosialist İnternasyonalının qurultayında 1857-ci ilin 8 martında Nyu-Yorkda başlayan mübarizənin, qadın hüquqlarının genişləndirilməsi və qadın həmrəyliyinin simvolu olaraq Klara Setkin adlı bir alman sosialist qadını, Amerikada 8 martda yandırılaraq öldürülən 129 qadın işçinin xatirəsinə hər il 8 mart gününü Dünya Qadınlar Günü olmasını təklif etdi və bu təklifi qəbul edildi

Bəzi tarixçilərin fikrincə, 8 martın təqvimə qırmızı rəqəmlərlə düşməsinin səbəblərini bilmək üçün 1910-cu ildə həmin günün bayram kimi qeyd olunması təşəbbüsünü irəli sürmüş Klara Setkinin şəxsiyyətinə, xüsusən onun milli mənsubiyyətinə nəzər salmaq lazımdır. Yəhudi Klara Setkinin təklif etdiyi 8 Mart günü 1910-cu ildə yəhudilərin Purim bayramı ilə üst-üstə düşürdü (yəhudi təqvimində Purim bayramının yeri dəyişir). Purim bayramı isə yəhudilərdə qadın ağlı, eyni zamanda bu millətin özünümüdafiə haqlarını simvolizə edir.

1911-ci ildə Kophenagen qərarından sonra ilk dəfə olaraq 19 martda Avstriya , Danimarka, Almaniya və İsveçrədə bu bayram qeyd edilmişdir.

8 Mart Sovet İttifaqından qalma bayram olsa da, Azərbaycanda indiyədək qeyd edilir. Məhz qadınların kütləvi şəkildə savadlanması, müəyyən hüquqlara malik olması həmin dövrə təsadüf edir. Bəlkə də buna görədir ki, 8 Mart digər sosializm mənşəli bayramlardan fərqli olaraq, artıq müstəqillik qazanmış keçmiş SSRİ respublikalarının təqvimindən bu günə qədər silinməyib.

1998-ci ildə Azərbaycanda Qadın Problemləri üzrə Dövlət Komitəsi yaradılıb. Azərbaycan həm də Avropa Şurasının qadınlarla bağlı bürosunda təmsil olunur, BMT-nin qadın məsələləri üzrə komissiyasının tam hüquqlu üzvüdür. 1995-ci ildə isə Azərbaycan rəsmi şəkildə qadınlara qarşı münasibətdə ayrıseçkiliyin bütün formalarının aradan qaldırılması haqqında beynəlxalq konvensiyaya qoşulub.

Hər il bayram günü ərəfəsində dövlət başçısı 8 mart - Beynəlxalq Qadınlar günü münasibətilə Azərbaycan qadınlarına təbrik ünvanlayır, Azərbaycan qadınlarının bir qrupuna fəxri adlar verir, digər bir qrupu isə orden və ya medallarla təltif edir.

**"Qəbələ"**

# Milli bayramımız Novruz

Novruz bayramı şimal yarımkürəsində yazın gəlişi ilə eyni gündə qeyd olunur. 21 mart tarixində gecə ilə gündüzün bərabərləşdiyi bu gündə qədim zamanlardan bir sıra xalqlar elə həmçinin azərbaycanlılar da yazın gəlişini, təbiətin oyanışını yeni ilin başlanğıcı kimi qeyd etmiş, şənliklər keçirmişlər. Bu şənliklər təkcə Azərbaycanda yox, həmçinin bir sıra şərq ölkələrində qeyd olunur. Hətta bir sıra ölkələr təkcə bununla kifayətlənmir, həmin gün onlarda təqvimin ilk günü hesab olunur və yeni il 21 mart tarixindən başlayır.

Novruz bayramı 2009 - cu ildə YUNESKO tərəfindən qeyri -maddi mədəni irs siyahısına daxil edilmiş, 2010 - cu ildə isə BMT Baş Asambleyasının 64-cü sessiyasının iclasında 21 mart tarixi " Beynəlxalq Novruz Günü" elan edilmişdir. Hal hazırda da bu bayram eyni qayda ilə qeyd olunur.

Novruz bayramı Azərbaycanda mənşəyi ən qədim bayramlardan biridir. Çox uzun müddətlər daim din xadimləri və müxtəlif təriqət nümayəndələri Novruz bayramına dini libas geyindirməyə çalışmış və onu öz gözlərində ayırmaq üçün bu kimi bir sıra işlər görmüşlər. Dini məsələlərin Novruz Bayramına təsiri isə Ərəb xilafətinin Azərbaycana gəlişi ilə başlamışdır.

Hətta bəzilərinin fikrincə bu bayram imam Əlinin hakimiyyətə gəldiyi günlə bağlıdır. Yəni xalq imam Əlinin hakimiyyətə gəlişini qeyd etmək məqsədi ilə bu bayramı etmişlər. Ancaq bildirək ki, imam Əli iyul ayında hakimiyyətə gəlmiş Novruz bayramı isə bildiyimiz kimi mart ayında qeyd olunur.

Xalqların çox hissəsi elə qədim zamanlardan olan adətləri özlərində saxlamışlar. Və məlum olur ki, keçirilən bu bayramlar, bu adətlər heç bir dini ehkamlarla əlaqəsi olmadan keçirilir.

Novruz bayramı ilə əlaqədar bir sıra dahi sənət insanları da öz xüsusi görüşlərini demişlər. Əbu Reyhan Biruni Novruz bayramı haqqında özünəməxsus müxtəlif rəvayətlər, Novruz bayramı ilə xalq arasında yaranmış adət ənənələrdən və Novruz bayramının yaranma səbəblərindən bəhs etmişdir. O öz əsərlərində Novruz bayramının hər hansı bir dini bayram yox təbiətin canlanması yeni fəslin gəlişi ilə əlaqəli dünyəvi bir bayram olduğunu qeyd etmişdir.

Novruz bayramı gecə ilə gündüzün bərabərləşdiyi 21 mart tarixində qeyd olunur. Novruzdan əvvəl isə dörd həftə ardıcıllıqla hər çərşənbə günü başqa - başqa adla qeyd olunur:

***- İlk çərşənbə*** Su çərşənbəsi adlanır. Su çərşənbəsi adətən havaların yavaş - yavaş isinməyə başladığı, çaylardakı buzların əriyərək çaya qarışdığı vaxt ilə üst - üstə düşür.

***- İlin ikinci*** çərşənbəsi isə Od çərşənbəsi adlanır. Bu çərşənbədən etibarən günəş torpağı daha da qızdırmağa başlayır və insanlar həyətlərində tonqallar qalayıb evlərində hər ailə üzvünə görə bir şam yandırırlar.

***- Üçüncü*** çərşənbəmiz isə Yel çərşənbəsidir. Bu gündən etibarən bəzi ağaclarda tozlanma başlayır. Bu isə demək olar küləyin hesabına əmələ gəlir. Necə ki tozlanma vaxtına çatmış tumurcuqları külək tərpədərək onları tozlanması üçün birləşdirir.

***- Dördüncü*** və ilin son ilaxır çərşənbəsi isə Torpaq çərşənbəsi adlanır.

Bütün bu dörd həftə ərzində ən birinci Su çərşənbəsi ilə təbiət torpağı suladı, Od çərşənbəsində torpağı qızdırdı, yel çərşənbəsində təbiəti oyatdı, indi isə sıra torpaqdadır. Əkin yerlərində işlər elə məhz Torpaq çərşənbəsində başlayır.

Novruz bayramı illərdən bəri qeyd olunduğu üçün vaxt keçdikcə yeni-yeni adətlər əmələ gəlib və nəsildən-nəsilə ötürülüb. Hal-hazırda isə Azərbaycanda Novruz bayramında aşağıda qeyd etdiyimiz adətlər var:

***Papaq atmaq:*** Əsasən gənclər və uşaqlar arasında yayılan bu adət zamanı atılan papağı heç vaxt boş qaytarmazlar, deyirlər.

***Qulaq falı:*** Papaq atmaq qədər məşhur adətlərdən biridir hansı ki, bu adətdə hər hansı bir evdə danışılanlar gizlincə dinlənilir, əgər yaxşı söhbətlər danışılırsa, onda bu o deməkdir ki, arzunuz yerinə yetəcək.

***Tonqaldan tullanmaq:*** növbəti adətlərimizdəndir. Bu adət həm Novruz bayramı günü həm də əsas Od çərşənbəsi günü həyata keçirilir.

***Üzük falı:*** qızlar arasında yayılan ən məşhur adətlərdən sayılır. Odur ki, sapa bağlanmış üzük su ilə dolu bir stəkanın içərisinə salınır və üzük neçə dəfə stəkanın divarlarına dəysə bu o deməkdir ki, qız o yaşında ərə gedəcək.

***Səməni becərmək:*** demək olar bütün ailələrdə həyata keçirilən bir adətdir, hər bir ailədə səməni yetişdirilir və bu da yazın gəlişindən ətrafın yaşıllaşmağından xəbər verir. Təzə yetişmiş buğda cücərtilərindən hazırlanan səməni, yaşıllığın və təbiətin dirilməsinin simvoludur. Eyni zamanda səməninin yaxşı bitməsi ilin məhsuldar olacağını, əks halda isə qıt olacağına nişanədir.

***Yumurta döyüşdürmək:*** elə balaca vaxtlarımızdan hamımızın sevdiyi adət olub. Yumurtası qırılan tərəf digərinin dediklərini etməli idi bu oyunda. Yumurta - Yeddi nemət süfrəsindən əlavə bayramın əsas komponentidir və masada boyalı şəkildə görünməlidir, çünki yumurtanın daxilində olan ağ maye nütfənin (insanın yenidən doğuluşu), sarı rəng isə irqin, yəni, fərqli yaradılışın simvoludur. Üst qabığı isə səma və kosmik tağın simvoludur. Tezliklə canlanmalı, dünyaya gəlməli olan təbiətin alleqoriyasıdır.

Bir biri ilə yola getməyən Keçəl ilə Kosa isə Azərbaycan Novruz bayramının əsas rəmzlərindən biridilər. Təbii ki, onların da mifik və mistik anlamları var. Rəngli geyimləri, qəribə danışıq və hərəkətləri, keçmişləri çox maraqlıdır.

Təbiətin dirilməsi ilə eyni vaxtda dostluq və ailə münasibətləri yenilənir, çünki bu günlərdə insanlar barışıb yaxınlarını və dostlarını ziyarətə gedir, hətta arada olan kin və ədavəti sevgi və xeyirxahlıq əvəz edir.

Novruz bayramı illərdən bəri qeyd olunduğu üçün vaxt keçdikcə yeni-yeni adətlər əmələ gəlib və nəsildən-nəslə ötürülüb. Hal hazırda isə Azərbaycanda Novruz bayramında aşağıdakı adətlər var.

Şam yandırmaq... Novruzda ailənin sayı qədər şam yandırarlar. Yəni uşaqla böyük bir-birindən fərqlənməməlidir.

Yallı getmək... Bu rəqs Azərbaycan xalqının qədim dövrdən bəri ifa etdiyi birlik rəqsdir. Yəni bu rəqsin mənası insanların birliyidir. Hansı bölgəmizdə adamlar arasında birlik varsa, bu rəqs orada daha çox inkişaf edib və yayılıb.

Novruz oyunları oynamaq... Məsələn, ənzəli, dirədöymə və saire.

Novruzun özünəməxsus yeməkləri vardır...

***- iydə:***

İydə və yarpaqları, həmçinin ətirli çiçəkləri sevgi və məhəbbət stimuludur və daha gözəl il üçün əsas şərtlərdən biridir, Zərdüştlər iydə toxumlarını kəklikotu ilə qarışdırıb Novruz masasına qoyurdular.

***- sarımsaq:***

Sarımsaq gümrahlıq, ətraf mühitin təmizliyi və bədənin sağlamlığı ilə yanaşı bəd gözlərdən qorunmanın simvolu kimi süfrəyə qoyulurdu.

***- şərab və sirkə:***

Şərab sonradan İslam dininin gəlişi ilə dəyişdirilmiş versiyası sirkə, elə sarımsaq kimi ətraf mühitin təmizliyini bildirməklə yanaşı sehr və cadunun aradan qaldırılmasını təmsil edir.

***- sumaq:***

Sumaq Novruz süfrəsinə qoyulmuş sevgi, qəlblərin birləşməsinin simvoludur.

***- su:***

Su kimi saf olmağın, təmizliyin simvolu. İşlərin su kimi axar olmağına inamı bildirir.

***- çörək:***

Xeyir-dua simvolu, bərəkət rəmzi.

***- qovurğa:***

Qovurğa ilaxır çərşənbədə qovurmalıq buğdadan qovrulur. Qovurğa bərəkət simvoludur. Zövqə görə qovurğaya küncüt, qoz, boranı tumu, düyü əlavə edilə bilər. Xonçaya qoz fındıq da qoyulur.

***- qoz, fistiq, findiq, şabalid:***

Bu çərəzləri yedikdə insanda enerji depolanır və gücün rəmzidir. Şabalıd farsca olub "şah palıd" sözünün birləşməsidir. Gələcək işlərdə möhkəm olmağa nişanədir.

***- paxlava:***

Paxlava ulduz və odun simvoludur. Paxlava ortasına qoyulmuş fındıq torpağa işarədir. Torpaqdan yaranmanı ifadə edir. Ümumiyyətlə, Novruz şirniyyatları əcdadlarımızın astral təsəvvürləri ilə bağlıdır. Paxlava ulduz simvoludur və alimlərə görə rombu xatırladır. Romb həyat ağacının mərkəzi elementidir və ana bətninə işarədir. Mərkəzinə yerləşdirilən fındıq, qoz içi isə ana bətnində olan uşağa işarədir.

***- naringi və portağal:***

Suyun içinə naringi və ya portağal atılır. Bu isə yer kürəsinin fəzada dolanmasını bildirir.

Novruz bayramı xalqımızın əsrlər boyu qeyd etdiyi bir bayramdır. Xalqımızın sənətkarları Novruz bayramı haqqında mahnılar yazmış, filmlər çəkmişlər. Üzeyir Hacıbəyov, Fikrət Əmirov, Oqtay Zülfüqarov, Rəhilə Həsənova kimi görkəmli bəstəkarlar müxtəlif mahnılar yazmışlar.

**"Qəbələ"**